*Laçın– Xankəndi yolundan REPORTAJ*

**Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Şuşa–Xankəndi yolunda keçirilən etiraz aksiyası dünən də davam etdi. Media nümayəndələri də milli təəssübkeşlikdən kənarda qalmayıb aksiyaçılara qarışdılar. Gün ərzində iştirakçıların sayı durmadan artdı.**

# Qarabağın əsl sahibi Azərbaycan xalqıdır



Etirazçılar sübhü dirigözlü açdılar, səhər yenidən şüarlar səsləndirməyə başladılar. Fikrini rus dilində aydın və cəsarətli şəkildə ifadə edən ictimai fəallar aksiyaya yüksək dinamizm və coşğu gətirdilər. Şübhəsiz ki, çıxışların məzmunu və səslənən tələblər general-mayor Andrey Volkova çatdırılırdı. Onun isə, elə bil, etirazçıların qarşısına çıxmağa üzü yox idi.

Axı o, Azərbaycanın ərazi bütövlüyünü pozmağa çalışan və təbii sərvətlərimizi talan edən bir qrup erməni quldurunun əməllərinə göz yummağa necə haqq qazandıra bilər? Ola bilsin ki, Volkov danılmaz faktlardan və ittihamedici suallardan qaça bilməyəcəyi üçün azərbaycanlıların qarşısına çıxmaqdan çəkinir. Nə bilmək olar? Hər halda Volkovun bu susqunluğu birmənalı qarşılanmır, sayqısızlıq kimi dəyərləndirilir.

Erməni teleqram kanallarında isə ölkəmizə qarşı ittihamlar ara vermir. Guya, Xankəndidə humanitar böhrandır. Nə bilim, hətta təcili yardıma gedən maşınların da qarşısı kəsilib. Bu da növbəti ağ yalandır. Üç gündür ki, aksiyalar keçirilir, indiyədək bir təcili yardım maşını belə görünməyib.

Etirazçıların içində elə fəallar var ki, bir neçə gündür ki, yatmırlar. Lakin onların mənəvi-psixoloji durumları yüksəkdir. Tanınmış ictimai fəal, “Azərbaycan –Türkiyə Evi”nin icraçı direktoru Toğrul Allahverdili də bura gələndən yatmasa da gümrah görünürdü, aksiyanı bir an belə tərk etmək fikrində deyildi.

Aksiyada fəal iştirak edən AMEA Mərkəzi Elmi Kitabxananın şöbə müdiri, Azərbaycan Vətəndaş Hərəkatının həmtəsisçisi və İdarə heyətinin üzvü, yenimedia.org xəbər portalının baş redaktoru Mübariz Göyüşlü mübariz bir əhvalla dedi:

–Rus sülhməramlılarının komandanı Volkov başda olmaqla sülhməramlılar haqlı tələblərimizə əməl etməlidirlər.

Xəbərimiz var ki, minlərlə insan bu aksiyaya qoşulmaq istəyir, bütövlükdə bu etiraz xalqımızın adından keçirilir. Azərbaycan xalqının bu sarsılmaz iradəsi qarşısında volkovlar, vardanyanlar, arutunyanlar geri çəkilməlidirlər. Biz Azərbaycan xalqına məxsus olan təbii sərvətləri bundan sonra erməni separatçılarının talayıb, xaricə aparmasına imkan verməyəcəyik!

Mədəniyyət Nazirliyinin Xankəndidən ətraf ərazilərindəki mədəniyyət abidələrinin də monitorinqini həyata keçirməyə hazır olduğunu bildirməsini aksiya iştirakçıları razılıqla qarşıladılar. Bu haqlı tələbi də səsləndirməklə biz mədəniyyət abidələrimizin də monitorinqini keçirməyə nail olmalıyıq.

Rus sülhməramlılarının arxasında gizlənən erməni separatçıları bizim qarşımızı kəsə bilməz! Əks halda, bütün xalqımız ayağa qalxıb talançıların dərsini verəcək.

Beləliklə, etirazçılar tələbləri yerinə yetirilənədək getməyəcəklərini bildirirlər. Əslində, belə döyüşkən və barışmaz mənzərəyə şahid olmaq bizim üçün olduqca qürurvericidir. Etiraz aksiyası ilə təmsil olunan bu hərəkat ölkəmizdə Vətən müharibəsindən sonra milli hədəflər uğrunda ən kütləvi mübarizədir. Qondarma rejim Azərbaycan torpağında özbaşınalıq edə bilməz. Aksiyanın qısa, konkret tələbi budur.

Hazırda isə Rusiya sülhməramlıları Azərbaycanın öz ərazisində təbii sərvətlərin talanıb-daşınması ilə bağlı monitorinq aparmasına şərait yaratmalıdırlar. Bu halda aksiya başa çatmış hesab oluna bilər.

Sonda qeyd edək ki, aksiya iştirakçılarının təhlükəsizliyini əraziyə cəlb edilmiş Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının döyüşçüləri və polislər yüksək səviyyədə təmin edirlər. Onlar hadisələri kənardan müşahidə edirlər. Hərbçilərimiz baş verə biləcək hər hansı təxribatın qarşısını almağa tam hazır dayanıblar.

**Anar TURAN,**
**“Xalq qəzeti”,**
**Şuşa**

Xalq qəzeti .- 2022.- 15 dekabr.- S.8.